# *Mündəricat*


4 Tarix nə vaxtdan başlayıb?

5 Qədim mədəniyyətlər harada yaranıb?

6 Yazı nə vaxt ixtira olunub?

7 İlk bədii əsər necə olub?

8 Niyə Qədim Misiri “qədim” adlandırırlar?

9 Qədim Misir necə qüdrətli oldu?

10 Qədim Misiri kim idarə edirdi?

11 Qadın firon ola bilərdimi?

11 Misirlilər öz fironlarını necə tanıyırdılar?

12 Hansı tanrının başı timsah başı idi?

13 İlahə Nut kim idi?

14 Misirlilər ölənləri niyə mumiyalayırdılar?

15 Niyə mumiyaların beyni yoxdur?

15 Mumiyanı niyə bələyirdilər?

16 Misirlilər ehramları niyə tikirdilər?

18 Qədim Misir Nil çayının hədiyyəsidirmi?

19 Tutanxamonun məzarı lənətlənmişdimi?

20 Yunanların hansı tanrıları vardı?

21 Qədim Yunanıstanda incəsənət dəyərli sənət növü sayılırdımı?

22 Qədim yunanlar harada yaşayırdı?

23 Qədim Yunanıstan necə böyüyürdü?

24 Qədim Yunanıstan bütöv dövlət idimi?

25 Vətəndaşların hansı hüquqları vardı?

25 “Su saatı“nı nə zaman qoşurdular?

26 Afina Pallada kim idi?

27 Əfsanə nədir?

28 Niyə aktyorlar maskada oynayırdılar?

29 İlk liranı kim düzəldib?

30 Olimpiya oyunları nədir?

31 Qalibləri nə ilə mükafatlandırırdılar?

31 İlk marafonu kim qaçıb?

32 Yunanlar kim idi?

# Tarix nə vaxtdan başlayıb?

Bəşəriyyətin tarixinin öyrənilməsini iki əsas hissəyə bölmək lazımdır: yazı ixtira edilməmiş əvvəlki dövrü əhatə edən qədim tarix və yazının ixtira edilməsindən sonrakı dövr və ya yeni tarix. Biz qədim vaxtlarda yaşamış insanlar barədə çox şey bilirik. Birincisi, ona görə ki, arxeoloqlar insanların istifadə etdiyi əşyaları – keramikadan olan qabları (piyalə, kasa), metal alətləri, zərgərlik məmulatlarını, həmçinin məbədləri, evləri, qəbirləri tapıblar. İkincisi, bu xalqlar yazını ixtira etdiklərinə görə, onlar da bizim kimi, baş verən hadisələrin hamısını yazırdılar. Məhz onların yazılı şahidliyi əsasında qədim xalqların mədəniyyətləri – misirlilər, Mesopotamiya əhalisi, yunanlar, romalılar, mayyalılar, asteklər və s. barədə çoxlu məlumatlar əldə etmişik.







# *Qədim mədəniyyətlər harada yaranıb?*

Qədim mədəniyyətlər böyük çayların yaxınlığında inkişaf edib: Mesopotamiyada – Fərat və Dəclə, Misirdə – Nil, Hindistanda – Hind çayının vadisində. Bu çaylar boyunca yerləşən torpaqlar çox məhsuldar idi. Məhz buna görə bu ərazilərdə yaşayan əhalinin sayı sürətlə artırdı, burada ərzaq hamıya bəs edirdi. Əhalinin artması ilə çayların və əkin sahələrinin yaxınlığında evlərin və yaşayış yerlərinin tikilməsinə ehtiyac yaranırdı. Beləcə, ilk şəhərlər yarandı. Həmçinin orda saraylar, məbədlər və kilsələr tikilirdi. Əhali artdıqca cəmiyyətin idarə edilməsi çətinləşdi, qaydaların qoyulması və hamını idarə edən vacib xadimlər, başçı və ya şah (çar) meydana gəldi. Cəmiyyətin bütün sakinləri əkinçiliklə məşğul deyildi. Onların içərisində sənətkarlar da, metal emal edilməsi ilə məşğul olanlar da, yemək bişirilməsi və saxlanması üçün istifadə edilən saxsı qabları istehsal edənlər də var idi. Məhz o zamanlarda yazı meydana gəldi.





## *Yazı nə vaxt ixtira olunub?*



Şumerlər yazını təxminən bizim eradan 3300 il əvvəl ixtira ediblər. Şumerlərin yazısı mixi xətt yazısından, yəni konkret əşyaların şəklindən ibarət idi. Əvvəllər bu şəkillər realistik idi, ancaq zaman keçdikcə sxematik işarələrə çevrildi.

Şumerlərdən bir xeyli sonra yazmağı öyrənən Misirlilər şəkillər seriyasından ibarət heroqlif yazıdan istifadə edirdilər. Bu yazı zamanı fikir şəkillər vasitəsilə ifadə edildiyindən, ona "şəkil yazı" deyirdilər.

Mayyalılar hər birinin öz mənası olan işarələr şəklində olan şəkillər seriyasından, ideoqrafik yazıdan yararlanırdılar. İndi Avropada istifadə edilən əlifba finikiyalılar tərəfindən tərtib edilib. Finikiyalılar ən sürətli və tam yazı üsulunu hazırladılar. Bu əlifba onların öz dillərindəki iyirmi iki samit səsə uyğun gələn iyirmi iki hərfdən ibarət idi. Yunanlar bu əlifbadan istifadə etdilər, ancaq bir neçə samit hərfi sait ilə əvəz etdilər. Sonradan romalılar yunan əlifbasını öz latın dilinə uyğunlaşdırdılar.